**11.05.2022: xəbər**

**Head of Psychological Service Center at International Scientific Conference**
On April 29-30, 2022, Baku Engineering University and the Academy of the State Customs Committee organized the VI International Scientific Conference of Young Researchers dedicated to the 99th anniversary of national leader Heydar Aliyev.
At the conference, Malak Karimova, Head of Khazar University's Psychological Service Center and Coordinator of the Department of Psychology, delivered a speech on "How should psychologists' therapeutic communication skills be developed?”. The purpose of this study is to analyze the essence of the course "Psychological Counseling", organized to strengthen the theoretical knowledge of students majoring in psychology with practical skills, and to conduct a quantitative study of the skills they learned in the course. The research was conducted among Khazar University's undergraduate fourth-year students (n = 20) during the "Psychological Counseling" course in the 2021-2022 academic year. The course is based on the “Micro Skills Training” (Ivey, 2007). The author spoke at the conference, substantiating the essence of the research lesson and the results of the research.
http://yric.az/

**Psixoloji Xidmət Mərkəzinin rəhbəri Beynəlxalq Elmi Konfransda**
2022-ci il aprelin 29-30-da Bakı Mühəndislik Universiteti və Dövlət Gömrük Komitəsi Akademiyasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi konfrans keçirildi.
Konfransda Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzinin rəhbəri, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova "Psixoloqların terapevtik ünsiyyət bacarıqları necə formalaşdırılmalı?" tədqiqatı ilə bağlı çıxış etdi. Bu tədqiqatın məqsədi psixologiya ixtisasında təhsil alan tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi məqsədi ilə təşkil edilən “Psixoloji Konsultasiya” dərsinin mahiyyətini təhlil etmək və onların dərslə bağlı öyrəndikləri bacarıqları haqqında kəmiyyət tədqiqatının keçirilməsidir. Tədqiqat Xəzər Universitetinin bakalavr dördüncü kurs tələbələri (n=20) arasında 2021-2022-ci tədris ilində “Psixoloji Konsultasiya” dərsi zamanı aparılmışdır. Dərs “Mikro bacarıqlar təlimi”nə (İvey, 2007) əsaslanılaraq təşkil edilmişdir. Müəllif tədqiqatla bağlı

keçirilən dərsin mahiyyətini və tədqiqat nəticələrini əsaslandıraraq, konfransda məruzə etdi.
Mələk Kərimova konfransda "Mediasiya prosesində ünsiyyətin psixoloji əsasları" mövzusu ilə də çıxış edib. O, Azərbaycanda 2021-ci ilin yanvar ayının birindən etibarən tətbiqi başladılan mediasiya prosesi və mediatorların peşə bacarıqlarının inkişaf etdirilməsi ilə əlaqədar danışıqların aparılması zamanı zəruri olan ünsiyyət bacarıqlarına toxunaraq, demokratik cəmiyyət quruculuğunda əhəmiyyətli yeri olan mediasiya prosesinin əsas məqsədləri, mediasiya prosesində ünsiyyətlə bağlı yaranan çətinliklər və mediatorun effektiv ünsiyyət qura bilmə bacarıqlarını formalaşdırması üçün nələrə diqqət edilməsi ilə əlaqəli məsələləri şərh etmişdir.
http://yric.az/